**Xeyli vaxtdı "Qadın gülərsə" deyib görüşünə gəlmirdik, əziz oxucu. Amma bilirik ki, bu görüşləri gözləyənlər çoxdu. Səbəblər çox, səbəblər müxtəlif. Gəlin onların dalınca getməyib xırdalıqlara varmayaq. Keçmiş elə öz yerində də qalsın, o nə toxunaq, nə də unudaq. Çünki keçmişini unudan, gələcəyinə güllə atar. Bu günü yaşayıb, sabahı düşünərək sevincimizi, kədərimizi bölüşməyi, bir-birinə dayaq olmağı, daha da sıx birləşməyi bacaraq. İllər göstərdi ki, bir xalq olaraq elə bir yumruq altında birləşməyimiz gör nə qədər arzularımızı çin etdi. Gəlin elə belə də davam edək...**

*Qadın gülərsə...*

# Qadının ən yüksək adı anadır

Biz də öz növbəmizdə düşündük ki, rubrikamızı gözləyən oxucularımızı, xüsusən də xanımlarımızı daha çox intizarda saxlamayaq. Qaldığımız yerdən yolumuza davam edək. Yeni görüşlərimizə məmləkətimizin bölgələrindən başlamaq qərarına gəldik. İlk yolçuluğumuz isə füsünkar Quba oldu. Bir neçə gün ərzində görüşdüyüm xanımlarla tanışlıq o qədər xoş oldu ki... Qonaqpərvərlik bizim xalqın canında, qanındadı. Qonağı olduğum Quba da məni belə qarşılayıb, xoş sözlərlə də yola saldı. Mən də orda tutduğum söz yükümü qəzetimizin saylarında sizlərə çatdırmağa başlayım. Onu da deyim ki, müsahiblərim ən şərəfli peşə sahibləri müəllimlər və bizlərin qayğısına qalan həkimlərimiz oldu.

Həmişə dediyim fikri indi də təkrar edirəm. Müəllimlik bütün peşələrin fövqündə duran sənətdir. Bu gün kimiksə, cəmiyyətdə hansı mövqeyə sahibiksə, buna görə müəllimlərimizə borcluyuq. Elə müəllimlərin özü də müəllmlərə borcludu. İlk müsahibim uzun illər pedaqoji fəaliyyətlə məşğul olan, hazırda Azərbayan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Quba rayon Komitəsini sədri İradə İsrailovadır.



## MƏN

1967-ci ildə füsünkar Azərbaycanın özünəməxsus gözəlliyi, təbiətilə seçilən Quba rayonunda ziyalı ailəsində dünyaya gəlmişəm. Müəyyən yaşa çatanda hamı



kimi birinci sinfə gedib, 1984-cü ildə Quba rayon 5 saylı məktəbi əla qiymətlərlə bitirmişəm. Elə həmin ildə də Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsinə eksperiment yolu ilə qəbul olunmuşam. Dörd imtahanın ikisindən lazım olan balı toplayaraq, qalan iki imtahandan azad olunmaqla tələbə adını qazanmışam. Tələbə ikən də təhsildə həmişə fərqlənmişəm. O zaman SSRİ məkanında yaşayırdıq və həmin dövr üçün partiya sıralarına qəbul olmaq hər bir kəsin arzusu idi. Yadımdadı, auditoriyaya daxil olub kimlərin partiyaya qəbul olmaq istəyini soruşanda, 27 tələbə əl qaldırdıq. Bizi xüsusi imtahan mərhələsindən keçirdilər və yeganə qalib mən oldum, Beləcə 90 nəfərlik tələbə auditoyiyasını içindən tək məni partiya sıralarına qəbul etdilər. Bu, artıq tələbəliyimin üçüncü ili idi. Universiteti "Zərbəçi-əlaçı" təqaüdü ilə bitirmişəm. Əlimə diplom alan kimi aspiranturanın qiyabi şöbəsinə daxul oldum. Lakin tale elə gətirdi ki, ailə vəziyyətilə əlaqədar öz ərizəmlə aspiranturadan ayrılmalı oldum və təbii indi bunun peşmançılığını çəkirəm. Mən riyaziyyatçı olmağımla həmişə fəxr etmişəm və bu gün də edirəm. Ali təhsilli məzun kimi Quba rayon Sənaye-Pedaqoji Kollecində pedaqoji fəaliyyətə başladım. Orta məktəblərdə boşluğun olduğunu görüb paralel olaraq orada da öz fənnimi tədris etmişəm. Fəaliyyətim dövründə müəllim və şagird kollektivinin rəğbətini qazana bilmişəm. 2007-ci ildə Qubadaki ən nüfuzlu təhsil ocağı olan Texniki Təmayüllü Liseydə iki il müəllim kimi çalışdıqdan sonra təşkilatçı müavin vəzifəsinə təyin olundum. Aitı ildən sonra isə liseyin direktoru pilləsinə ucala bilmişəm. Pedaqoji fəaliyyətim 27 il çəksə də, mənim bu günün özündə belə, riyaziyyata olan sevgim, bağlılığım olduğu kimi qalmaqdadır. Tale elə gətirdi 2016-cı ildə müəllimlik fəaliyyətimə son verməli oldum. Həmin vaxtdan indiyədək Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Quba rayon Komitəsinin sədriyəm. İşimə məsuliyyətlə,c iddi yanaşmaqla onu sevsəm də, mənim üçün müəllim adı hər şeydən irəlidədir və öz fənnimə olan bağlılığımın hüdudu yoxdur.

## OCAQ

Quba rayonu üzrə indiki İqtisad Universitetinə qəbul olan Şaban Hüseynov, yəni mənim atam olub. Riyaziyyatı çox yüksək səviyyədə bilib və çox güman ki, bu sevgi ondan biz övladlarına keçib.

Ailədə beş uşaq olmuşuşuq - dörd bacı, bir qardaş. Atam qız uşaqlarının təhsil almasına o qədər önəm verirdi ki, biz dörd bacı hamımız ali təhsilə yiyələndik. Rayonda böyük nüfuz, hörmət sahibi olan atam həmişə məsul vəzifələrdə çalışıb. Onun bizə ən böyük hədiyyəsi oxuyub təhsil almağımıza yol açması olub. Əgər bu gün mən cəmiyyətdə müəyyən bir mövqe tutmağı bacamışamsa, buna görə tək atama borcluyam.

Anam evdar xanım olub. Rayon yerində ailələrdə qız uşaqlarını kiçik yaşından ev işlərinə alışdırmaq kimi bir xüsusiyyət var. Biz dərsdən gələndə anam aramızda iş bölgüsü aparanda, atam gəlib deyərdi ki, ev işlərini özün gör, mənim qızlarım mütləq təhsil almalıdır. Biz dörd bacıdan atamın həmişə iki tələbi olub. Deyərdi ki, həm təhsiliniz, həm tərbiyəniz olsun. Bunlarla qoşa addımladıqca ayaq üstə möhkəm dayana biləcəksiz. Atamın bu tövsiyyəsini evdə iki qızıma, müəllim vaxtlarımda sinifdə həmişə uşaqlara aşılamağa çalışmışam. Bu gün elə bir insanın övladı olmağımla o qədər qürur hissi keçirirəm ki... İstər qohumlarda, istər atamı tanıyan insanlar mənə ona çox bənzədiyimi söyləyir. Həm xasiyyətdə, həm savadda atama oxşadığım üçün Allahıma hər zaman şükür edirəm. Ailəmizdə maraqlı bir xətt var - dörd bacı hamımız riyaziyyatçıyıq. Atamdan bizə keçdiyi kimi, biz də bu sevgini övladlarımıza ötürə bilmişik. Valideynlərimin yeddi nəvəsi var və onların hamısı ali təhsillidir. Biz ata vəsiyyətini, ata nəsihətini davam etdirə bilmişiksə, bununla öyünməyə dəyər.

## MÜƏLLİM

Müəllim cəmiyyətin simasıdır. Müəllim ən nüfuzlu adı layiqincə daşıya bilən şəxsiyyətdir. Müəllim sözü kiməsə müraciət formasında ünvanlananda, bu, mənim xətrimə dəyir, çünki bu ad özülüyündə o qədər saf, o qədər müqəddəsdir ki,ona xələl gəlməsinə əsla razı deyiləm. Bu söz elə bir zirvədədir ki,onu ordan endirmək olmaz. Müəllim insan yetişdirir, onlarla sevinir, onlarla gülür. Yeri gələndə onlarla ağlaya da bilir. Təbii ki, yetirmələrilə qürur duymaq da yalnız müəllimə nəsib olur. Bu gün dünyanın çox yerində müəllimi olduğum şagirdlər var. İndi onlar hərəsi bir sahənin peşəkarı olsa da, mənim gözümdə şagird olaraq da qalıblar. Müəllim



bir nümunə, örnək olmalıdır cəmiyyətə. Bütün xırdalıqları ən yüksək şəkildə göstərməyi bacarmalıdır. Müəllim əlçatmaz bir qüvvədir və çox istərdim ki, hamı buna layiq olsun.

## ŞAGİRD

Şagird bir şəxsiyyətdir və ona yalnız bu gözlə baxmaq lazımdır. Ailə övladını məktəbə etibar edir və biz onun düzgün yetişməyində ailə qədər məsuliyyət daşıyırıq. Tez-tez eşitdiyim bir söz var - uşaq ailədə aldığı tərbiyənin göstəricisidir. Amma unutmayaq ki, həmin uşaq günün böyük hissəsini məktəbdə keçirir. Məktəb və müəllimlər bu zamandan o qədər dəqiqliklə, səmərəli istifadə etməlidir ki, şagird burda görüb öyrəndiyini evə daşıya bilsin. Bəli, çətin, ipə-sapa yatmayan, pis vərdişlər yoluna meyilli uşaqlar var. Lakin bunun kökündə əsas ailəməişət problemləri durur. Əsl müəllim odur ki, çox incəliklə, həssas yanaşmaqla ən çətin uşağın qəlbinə yol taparaq onun cəmiyyətə düzgün adaptasiyasına yardım edə bilsin. Biz bu gün informatika, texnologiya, sosial şəbəkələr əsrində yaşayırıq və heç kimi bundan kənarda tuta bilmirik. Bu günün şagirdi informasiya bolluğunda yaşayır. Ona lazım olan məlumatı anındaca əldə edə bilir. Bunu yaxşı olduğu qədər də mənfi tərəfləri də var. Ona görə də müəllim şagirdini bacardığı qədər o mənfilərdən uzaqlaşdırmağa həmişə səy göstərməlidir. Bir məqamı da vurğulamaq mütləq lazımdır. Əgər məkrəblə valideyn arasında sıx birlik olarsa, onda əsl şagird yetişdirmək mümkündür. Əvvəldə qeyd etdiyim kimi,müəllim cəmiyyərin simasıdırsa, şagird həmin cəmiyyətin gələcəyidir və onu sağlam yetişdirməyə biz borcluyuq.

## 44 GÜN

Azərbaycanın gözəl, mərd, cəsarətli, savadlı gəncləri var. Belə gənclərlə çox şeyə nail olmaq olar. Acınacaqlı da olsa, bunu hamısına şamil etmək olmur. Lakin biz 44 gün ərzində elə oğullar gördük ki, onların sayəsində Azərbaycan gəncini tanıdıq. Tək tanımadıq, onların nələrə qadir olduğunu gördük. Vətən Müharibəsində Quba 54 şəhid verdi. Antiterror əməliyyatında da rayonumuzun itkiləri oldu. Mən bir şəhidimizdən danışmaq istəyirəm - Mehrab Niftəliyev. Azərbaycan Silahlı Qüvvələrinin baş giziri idi. 11 yaralı əsgəri çiynində daşıyaraq, onları da, özünü də xilas edə bildi bu qəhrəman. Müharibənin 44 gününü döyüşdü və Şuşaya Azərbayan bayrağı sancılan günü o şəhid oldu. Belə gənclərlə fəxr etməmək olarmı? Bu gənclər tarixə elə bir dastan yazdılar ki, Azərbaycan var olduqca, dünya ondan danışacaq. Biz illərlə müharibə istəmirik deyə, haray çəkdik. Dövlət başçımız illərlə qarşı tərəfi sülhə dəvət etdi, danışıqlara çağırdı. Dünya bizi aciz bildi, amma bu, heç də aclzlik deyildi axı. Biz anaların göz yaşlarını görmək istəmirdik. Biz uşaqların atasısız qalmağını istəmirdik. Biz başsız qalacaq ailələrin ağrıacı yaşamağını istəmirdik. Amma nə yazıq ki, buna məcbur olduq. Bu gün adları ilə öyündüyümüz şəhidlər bizi 30 illik bir əsarətdən xilas etdi və nə yaxşı ki, bu yük böyüməkdə olan nəslin çiynində qalmadı.

## İRADƏ MÜƏLLİMƏ

Həyat daima mübarizə tələb edir. Hamı hər şeyə asanlıqla nail ola bilmir. Çalışırsan-vuruşursan, yıxılırsan,qalxırsan, itirirsən, qazanırsan. İtkisiz həyat yoxdur. İtirməsən nəyisə qazana bilmirsən. Şükürlər olsun ki, qazandıqlarım daha çoxdu. Gözəl ailəm, iki ali təhsilli qızım var. Böyük qızım davamçım olaraq riyaziyyatı seçib, ikincisi şərqşünaslıq fakültəsini bitirib. Hər ikisi BDU-nun məzunudur. Onları düzgün yetişdirə bilməyim ən böyük qazancımdır. Həyat yoldaşım rəssamdır. Rəssalar İttifaqının üzvüdür. Əsərləri dünyanın bir çox ölkələrində - İtaliyada, Moskvada, Türkiyədə birinci yerə layiq görülüb. Böyük qızımızda atasının bu istedadı da var, rəngləri, rəsmləri çox sevir. Bu gün dünyanın müxtəlif yerlərindən yetirmələrimin xoş sorağını eşitmək mənim həyatda daha bir qazancımdır. Həyatda təəssüfləndiyim bir şey var. Əgər geriyə qayıda bilsəydim mütləq 7-8 dil öyrənərdim. Dünyanın çox ölkələrini gəzmişəm və dilə həmişə ehtiyacım olub. Ona görə də indii gənclərə çox dil öyrənməyi tövsiyyə edirəm.

## QADIN GÜLƏRSƏ...

**Əvvəla adımızı tutub biz tərəflərə gəldiyinizə görə sizə, qəzetinizə təşəkkürümü bildirir və fürsətdən istifadə edərək, bu gün peşə bayramını qeyd edən bütün müəllimləri təbrik edirəm. Qadın adında o qədər böyüklük var ki, onu sadalamaqla bitməz. Amma qadının ən yüksək adı anadır. Mən məhz anaları heç vaxt gözüyaşlı görmək istəmirəm. Əgər anaların üzü gülərsə, dünya bir nur topu kimi hamının evinə dolar. Gəlin bu gülüşü anaların çöhrəsindən əskik etməyək.**

**Tamilla TEYMURQIZI**